2017-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələri hesabına 47120,5 min manat həcmində investisiyadan istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,5 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi 0,8 faiz artaraq 44584,5 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 94,6 faizini təşkil edir.

2016-cı ildə muxtar respublikada tikinti sahəsində 12512 nəfər işçi çalışmışdır ki, bu da 2015-ci illə müqayisədə 1,1 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2015-ci ilə nisbətən 1,3 faiz artaraq 464,2 manat olmuşdur.